# AZƏRBAYCAN RESPUBLİKASI

## Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının

## SƏRƏNCAMI

№ 33 "22" 09 2020-ci il

**"Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın seçki komissiyasının yaradılması haqqında"**

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsinin icrası ilə əlaqədar hazırlanmış "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.3-cü və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndlərini rəhbər tutaraq

**QƏRARA ALIRAM:**

1. Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə 9 nəfərdən ibarət seçki komissiyası yaradılsın.

2. Seçki komissiyasının tərkibi yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının əməkdaşlarından 4 üzv, vətəndaş cəmiyyəti institutu nümayəndələrindən 5 üzv olmaqla aşağıdakı kimi təsdiq edilsin:

**Komissiyanın sədri**

| | |
|---|---|
| - Namiq Süleymanov | Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |

**Komissiyanın üzvləri**

| | |
|---|---|
| - Sahib Əhmədov | Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| - Elmar Əliyev | Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı |
| - Cavid Mehralıyev | Daşkəsən şəhər Bələdiyyəsinin sədri |
| - Müşfiq Hüseynov | Daşkəsən rayon Ziyalılar Cəmiyyətinin sədri |

- İsax Məmmədov — Dövlət İdarələri və İctimai Xidmət İşçilərinin Həmkarlar İttifaqının Daşkəsən rayon Komitəsinin sədri
- Ənvər Əliyev — Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası Daşkəsən rayon Təşkilatının sədri
- Vasif Hüseynov — "Qızıl Aypara" Cəmiyyətinin Daşkəsən rayon bölməsinin sədri
- Bəkir Qurbanov — Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyinin Daşkəsən rayon filialının müdiri

3. Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın tərkibi 6 nəfər müəyyən edilsin.

4. Seçki komissiyasına tapşırılsın ki, Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində (www.dashkesen-ih.gov.az), "Daşkəsən" qəzetində və digər müvafiq yerlərdə İctimai Şuraya seçkilərin təşkili ilə əlaqədar olaraq namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanması və başa çatması vaxtını elan etsin.

5. Komissiyaya tapşırılsın ki, Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai şuraya namizədlərin irəli sürülməsi və qeydiyyatını "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.9-cu maddəsinə uyğun olaraq 20 gün müddətinə başa çatdırsın və seçkilərin "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin etsin.

6. Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sahib Əhmədova tapşırılsın ki, sərəncamın aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

7. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

BAŞÇI: ƏHƏD ABIYEV

PAYLANIR: İşə, İctimai-siyasi və humanitar məsələlər şöbəsinə, əlaqədar idarə, müəssisə və təşkilatlara.

DÜZDÜR,

SƏNƏDLƏRLƏ VƏ VƏTƏNDAŞLARIN
MÜRACİƏTLƏRİ İLƏ İŞ ŞÖBƏSİNİN
MÜDİRİ: SAHİB ƏHMƏDOV

SƏNƏDLƏR ÜÇÜN